# Azərbaycan kinolarının lentdən rəqəmsallaşmaya keçidi nə yerdədir...

**Bu gün bütün dünyada filmlərin rəqəmsallaşması prosesi həyata keçirilir. Müasir dünyanın tələblərindən biri olan rəqəmsallaşma bütün sahələrə sirayət edib, o cümlədən də kino sahəsinə. "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın müvafiq bəndlərindən birində də milli və digər filmlərin rəqəmsallaşdırılması qeyd olunub.**

## *Cəmil Quliyev: "Filmlərimizin kinolentdə bərpa olunması ilə rəqəmsal daşıyıcılara köçürülməsi prosesi paralel aparılmalıdır"*

Onu da vurğulayaq ki, Azərbaycanda həm Sovet dövründə çəkilən, həm də yeni istehsal edilən filmlərin rəqəmsallaşdırılması ilə bağlı müəyyən işlər görüldüyü bildirilir. Məlumat üçün bildirək ki, ölkəmizdə film və videoların rəqəmsallaşdırılması, eyni zamanda, bərpası ilə bağlı studiyalar mövcuddur.

Bu günlərdə 1973-cu ildə "Azərbaycanfilm" kinostudiyasında rejissor Həsən Seyidbəylinin ekranlaşdırdığı "Nəsimi" kinosu bərpa edilib. Ekran əsəri Mədəniyyət Nazirliyinin dəstəyilə "Balans" milli rəqəmsal studiyasında yenilənib. "Nəsimi" ilə yanaşı, digər Azərbaycan filmlərinin də rəqəmsallaşdırıldığı qeyd edilir.

Bir çox mütəxəssis hesab edir ki, filmlərin lentdən rəqəmsallığa keçirilməsi həm günün tələbidir, həm də o filmlərin bir yerdən digər yerə daşınması işini asanlaşdırır.

Azərbaycan filmlərinin rəqəmsallaşdırılması sahəsində nə kimi işlər görülüb və görülməsi planlaşdırılır?

"Azərbaycanfilm" kinostudiyasının direktoru, əməkdar incəsənət xadimi, professor Cəmil Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu prosesə çoxdan başlanıb və xeyli sayda film artıq rəqəmsallaşdırılıb: "Məsələ burasındadır ki, Azərbaycan filmlərinin rəqəmsallaşması prosesinə çoxdan başlanıb. Həm Dövlət Film Fondu, həm də "Azərbaycanfilm" kinostudiyası tərəfindən bu proseslər mütəmadi olaraq davam etdirilir və əksər film artıq rəqəmsal daşıyıcılara keçirilib. Bu istiqamətdə işlər aparılır, filmlər yenilənir. Eyni zamanda, yeni ildə bir çox Azərbaycan filminin kinoplyonkada da bərpa olunması nəzərdə tutulur. Yəni filmlərin təkcə rəqəmsal deyil, kinolentdə də bərpa olunması aktualdır. Bu proseslərə vəsait ayrılmalıdır. Çünki artıq Azərbaycan kinosuna vəsait ayrılır və o vəsaitin daxilində Azərbaycan filmlərinin kinolentində də bərpa olunması və toxunulmaz fond kimi saxlanması nəzərdə tutulub. Bu gün Dövlət Film Fondunda ayrıca toxunulmaz fond var və ora bir çox film daxildir, həmin filmlər kinolentdə saxlanır. Filmlərimizin kinolentdə bərpa olunması prosesi ilə rəqəmsal daşıyıcılara köçürülməsi prosesi paralel aparılmalıdır. Ümumiyyətlə, dünya kinoarxiv işində bərpa prosesi həmişə iki istiqamətdə (kinolentində və rəqəmsal) aparılır. Çünki filmlərin rəqəmsal bərpası müasirdir, yaxşı haldır. Eyni zamanda da çevikdir, amma filmlərin təhlükəsizliyini həyata keçirmək üçün mütləq filmlər kinolentdə də saxlanmalıdır. Rəqəmsal belədir ki, bir serverdə minlərlə film saxlamaq olar, həmin filmləri daşımaq asan olur. Amma filmləri kinolentdə saxlamaq üçün böyük yer tələb olunur, amma buna baxmayaraq, bütün kinoarxiv təşkilatlarında bütün filmlər, materiallar lentdə də saxlanır. Bu gün bununla bağlı dünya kinoarxiv təşkilatlarında həmişə konfranslar, simpoziumlar, forumlar keçirilir, bizim təmsilçilərimiz də o tədbirlərdə iştirak edirlər. Sonuncu dəfə belə bir tədbir İsveçrədə keçirildi. Həmin tədbirlərdə çıxış edən mütəxəssislər də belə qənaətə gəlirlər ki, filmlər həm rəqəmsal, həm də plyonkada saxlanmalıdır. Bu birbirini tamamlayır, eyni zamanda, filmin məhv olmasını sıfıra endirir".




*"Həm Dövlət Film Fondu, həm də "Azərbaycanfilm" kinostudiyası tərəfindən bu proseslər mütəmadi olaraq davam etdirilir"*

C.Quliyev qeyd etdi ki, Azərbaycanda bu sahədə texnoloji avadanlıqlar var, amma filmlərimizin kinolentdə bərpa olunması üçün tələb olunan avadanlıq Azərbaycanda yoxdur: "Ona görə də filmlərimiz kinolentdə (plyonka) Azərbaycandan kənarda bərpa olunur. Bizdə əsasən rəqəmsallaşma istiqamətində işlər gedir. Çünki filmlərin kinolentdə bərpası üçün böyük laboratoriyalar lazımdır. Bu laboratoriya da böyük vəsait hesabına qurula bilər. Yəni bu proses çox böyük vəsait tələb edir. Bizim laboratoriyamız var, amma kinolentin emal məsələsi bu gün az ölkədə var. Biz filmləri kinolentə bərpa edə bilirik, amma onun kinolentə çap olunması, nüsxələnməsi üçün böyük laboratoriya tələb olunur, həmçinin də vəsait. Filmləri qoruyub saxlamaq üçün kifayət qədər avadanlığa malikik. Biz onu edirik.

**Amma filmlərin tam şəkildə kinolentdə nüsxələnməsi böyük laboratoriya tələb edir. Bundan əsasən Amerika Birləşmiş Ştatlarında, Rusiyada istifadə edilir. Azərbaycan filmləri əsasən Rusiyada bərpa edilir. Rusiya kinoarxiv təşkilatları dünyada ən böyük belə təsisatdır. Onların saysız-hesabsız filmi var. Ona görə də onların belə böyük laboratoriya yaratmasına zərurət yaranıb. Onlar burada öz filmlərini nüsxələyirlər. Bizə də lazım olanda onlara müraciət edirik".**

***İradə SARIYEVA***